# "Dar günün dostu, can qardaş!"

## İlham Əliyevlə Ərdoğanın görüşü Türkiyə mediasının əsas gündəm mövzusu oldu




**Türk dünyasının lider dövlətləri olan Azərbaycan ilə Türkiyə arasında dostluğa, qardaşlığa əsaslanan çoxtərəfli və sürətlə genişlənən münasibətlər hər iki ölkəni daha güclü mövqe sahibinə çevirməkdədir. İki dövlət arasında münasibətlərin, əslində, başqa bir məcrada inkişafı da mümkün deyil. Əksinə, hər yeni sınaq, meydana çıxan çətinlik ölkələrimiz, xalqlarımız arasında qardaşlıq bağlarını daha da möhkəmləndirir.**

Eyni zamanda istər ikitərəfli əlaqələrdə, istərsə də regional və daha genişmiqyaslı məsələlərə münasibətdə qarşılıqlı maraqların nəzərə alınması ölkələrimizin birliyinin dünya miqyasında da nə dərəcədə sarsılmaz olduğunu beynəlxalq ictimaiyyətə aydın nümayiş etdirir. Bu son aylarda cərəyan edən proseslər fonunda bir daha öz təsdiqini tapdı. Azərbaycan dar günün də dostu olduğunu, ən yaxın müttəfiqinin dərdini hər zaman bölüşdüyünü, eyni zamanda qardaş Türkiyəni heç zaman yalnız qoymayacağını bir daha nümayiş etdirdi.

Dünən Ankarada Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçılarının Fövqəladə Zirvə görüşü keçirilib. Belə ki, görüşün Şuşada keçirilməsi nəzərdə tutulmuşdu. Lakin böyük dağıntılara səbəb olan əsrin fəlakəti sayılan dəhşətli zəlzələdən sonra Prezident İlham Əliyevin dərin narahatlıq hissi keçirməsi, Türkiyəyə dəstək məqsədilə Zirvə görüşünün Ankarada təşkil edilməsi təklifi ilə çıxış etməsi iki xalq arasında dostluğun, qardaşlığın, strateji tərəfdaşlığın möhkəm təməllər üzərində bərqərar olduğunun növbəti dəfə təsdiqidir. Liderlərin Ankaradakı görüşü Türkiyənin bütün qəzetlərinin manşet mövzusu olub. Aparıcı televiziya şirkətləri, internet portalları görüşdən dolğun materiallar yayıblar.

"Yeni akit" qəzeti "Dar günün dostu, can qardaş" başlığını manşetdən verib. Bildirilib ki, cənab İlham Əliyev Türkiyədə baş verən dəhşətli zəlzələdən sonra hadisələri həyəcanla izləyib və dərin narahatlıq keçirib: "Azərbaycan dar günün dostu olduğunu növbəti dəfə nümayiş etdirdi. Bir bədəndə iki can, Türkiyə-Azərbaycan".

"Türkiyə" qəzeti "Öncə Vətən deyən gəlsin" başlıqlı xəbərində yazıb ki, Azərbaycan-Türkiyə qardaşlığı nümunəvidir və belə hallar iki dövləti bir-birinə daha sıx bağlayır.

"Takvim" qəzeti isə "Əsrin iki fəlakəti" başlıqlı xəbərində bildirib ki, heç bir ölkə təbii fəlakətlərdən sığortalanmayıb. Bu görüşün də məqsədi həm qeyd edilən sahədə praktiki əməkdaşlığın müzakirəsi, həm də qardaş Türkiyəyə baş vermiş dəhşətli zəlzələnin fəsadlarının aradan qaldırılmasında dəstəyin nümayiş etdirilməsidir.

Qardaş ölkənin ən çox oxunan qəzetlərindən "Sabah" isə "Yüz ilin inşasını edəcəyik" başlıqlı xəbəri manşetdən verib. Qeyd edilib ki, "Təbii fəlakət-fövqəladə halların aradan qaldırılması və humanitar yardım" mövzusuna həsr olunan Zirvə görüşü zəlzələ nəticəsində yaranan fövqəladə vəziyyətlə bağlı məsələlərin ən yüksək səviyyədə müzakirə edildiyi platforma olacaq.

Televiziya kanallarından "A Haber" "Türk dövlətləri toplandı" başlıqlı xəbərində bildirib ki, Azərbaycan lideri zəlzələdən sonra artıq ikinci dəfədir ki, Türkiyəyə səfər edir: "Azərbaycan Türkiyəyə ən çox dəstək göstərən ölkələrdən biridir. Azərbaycan tərəfindən qardaş Türkiyəyə fevralın 6-dan indiyədək göstərilmiş humanitar və maliyyə yardımının ümumi məbləği 44 milyon dollardan çoxdur".

Qəzetlərdən "Beyaz gazete"nin "Zirvə öncəsi görüş", kanallardan "Haber Global"ın "Beştəpədə Əliyev-Ərdoğan görüşü", saytlardan "Memleket.com.tr"nin, "Urlhaber"in, "Ensonhaber"in "Ərdoğanla İlham Əliyev görüşdü" kimi başlıqlarında bildirilib ki, Azərbaycan-Türkiyə qardaşlığı nümunəvidir və belə hallar iki dövləti bir-birinə daha sıx bağlayır.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*